**AZƏRBAYCAN RESPUBLİKASININ**

**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN**

**KOLLEGİYASI**

# QƏRAR

**№**

**Bakı şəhəri** **07 avqust 2020-ci il**

## Ailə və uşaq məsələləri sahəsində həyata keçirilən tədbirlər və hazırlanmış sənədlər haqqında

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi öz fəaliyyətində bir neçə mühüm prioritet məsələni əsas götürür ki, bu da cəmiyyətin inkişafında xüsusi əhəmiyyətə malikdir. Dövlət siyasətinin tərkib hissəsi olan ailə, qadın və uşaq məsələləri aktuallığı və dinamikliyi ilə seçilir. Azərbaycan dövlətində ailənin inkişafı, cəmiyyətdə onun yerinin möhkəmləndirilməsi məqsədilə həyata keçirilən ardıcıl tədbirlər ailənin müdafiəsini və ailəyə dövlət qayğısını təmin edir. Bu sahədə dövlətin güclü və təkmil qanunvericilik bazası mövcuddur. Qəbul olunmuş dövlət proqramları ailələrin sosial rifahının yaxşılaşdırılması istiqamətində görülən ən mühüm tədbirlərdir.

"Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1524-VQD nömrəli Qanununun tətbiqi və "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli 697 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 629 nömrəli Fərmanının1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 iyun 2020-ci il tarixli, 213 nömrəli Qərarı ilə "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması möhkəmləndirilməsi məqsədi ilə erkən nikahın və qohumları arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası" təsdiq edilmişdir. Bu Qayda aidiyyəti dövlət orqanları tərəfindən gənclərin erkən nikahların və qohumlar arasında nikahların mənfi nəticələri barədə maarifləndirilməsi işinin daha məqsədyönlü şəkildə aparılmasına imkan verəcəkdir.

Sənəddə maarifləndirməni həyata keçirən dövlət orqanlarına müvafiq sahədə gördükləri tədbirlər barədə məlumatların hər ilin 20 dekabr tarixinədək Komitəyə təqdim etməklə özlərinin rəsmi informasiya ehtiyatlarında yerləşdirilməsi həvalə edilmişdir. Komitə tərəfindən orqanlardan daxil olan məlumatlar ümumiləşdirilib hər növbəti ilin yanvar ayının sonunadək rəsmi internet saytında yerləşdirilməli və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verilməlidir.

Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 2 iyun 2020-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası" təsdiq edilmişdir. Sərəncama əsasən Strategiyanın 2020–2025-ci illərdə icrası üzrə fəaliyyət planının layihəsinin 3 ay müddətində hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi tapşırılmışdır. Sərəncamdan irəli gələrək Azərbaycan Respublikasının Baş Nazirinin 11 iyun 2020-ci il tarixli, 265 s saylı Sərəncamı ilə Komitəyə aidiyyəti dövlət qurumları ilə razılaşdırılmaqla fəaliyyət planının layihəsinin hazırlanması tapşırılmışdır. Bu məqsədlə Komitə tərəfindən müvafiq qurumlara müraciət edilmiş və işçi qrup yaradılmışdır. İşçi qrupun təklifləri nəzərə alınaraq Fəaliyyət Planının layihəsi hazırlanmış və aidiyyəti qurumlara təqdim edilmişdir

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin kollegiyası məruzə və çıxışları nəzərə alaraq

**Q Ə R A R A   A L I R:**

1. Ailə və uşaq məsələləri sahəsində həyata keçirilən tədbirlər və hazırlanmış sənədlər haqqında məlumat nəzərə alınsın.
2. Ailə problemləri şöbəsinə tapşırılsın ki, "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədi ilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası"nın icrasında səmərəliyin artırılması, aidiyyəti qurumların birgə fəaliyyətinin təşkili məqsədilə Tədbirlər Planını hazırlasın.
3. Uşaq problemləri şöbəsinə tapşırılsın ki, "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası" nın 2020–2025-ci illərdə icrası üzrə Fəaliyyət Planının layihəsinin hazırlanması istiqamətində görülən işlərə nəzarəti gücləndirsin.
4. Qərarın icrasına nəzarət Komitənin sədr müavini Aynur Sofiyevaya, aparat rəhbəri Ceyran Rəhmətullayevaya tapşırılsın.

**Kollegiyanın sədri** **Bahar Muradova**